# YANACAĞIN PƏRAKƏNDƏ SATIŞI MÜQAVİLƏSİ №

**Bakı şəhəri** **“ ”______ 2025-ci il**

Bir tərəfdən Nizamnamə əsasında fəaliyyət göstərən «Azpetrol Ltd.» MMC (bundan sonra «Satıcı» adlanacaq) adından Baş Direktoru Ceyhun Əhməd oğlu Məmmədovun şəxsində, digər tərəfdən Nizamnamə əsasında fəaliyyət göstərən __________________ (bundan sonra «Alıcı» adlanacaq) adından Direktoru ______________ şəxsində bu müqaviləni (bundan sonra «Müqavilə» adlanacaq) aşağıdakı şərtlərlə bağlayırlar.

## I. MÜQAVİLƏNİN PREDMETİ

Müqaviləyə görə Satıcı müvafiq dövlət standartlarına cavab verən yanacağın «SMART» Kartlar və ya elektron talonlar (bundan sonra «Kart» adlanacaq) vasitəsilə Alıcıya satışını, Alıcı isə, yanacağın dəyərini qabaqcadan ödəməklə, kartı qəbul etməyi öz öhdələrinə götürürlər.

## II. ƏSAS ŞƏRTLƏR

2.1. Yanacağın satışı əvvəlcədən ödəniş qaydası ilə aparılır və Alıcı kartı qəbul etdiyi tarixdən etibarən Müqavilənin qüvvədə olduğu müddət ərzində hesaba yüklənəcək məbləğə uyğun yanacağı almaq hüququ əldə edir.

2.2. Alıcının ödəniş etmək istədiyi məbləğ Satıcının hesablaşma hesabına və ya xəzinəsinə daxil olduqdan və Alıcının onlayn şəkildə təqdim etdiyi kartın təhkim ediləcəyi şəxslərin və (və ya) nəqliyyat vasitələrinin siyahısı (sifarişi) Satıcı tərəfindən təsdiqləndikdən sonra, qarşılıqlı razılıq əsasında Satıcı və ya Alıcı tərəfindən karta yüklənir.

2.3. Karta yüklənmiş yanacağa mülkiyyət hüququ yanacaq Satıcının yanacaqdoldurma məntəqələrində (bundan sonra «YDM» adlanacaq) faktiki götürülən andan Alıcıya keçir. Yanacağın dəyəri Alıcının yanacağı faktiki qəbul etdiyi vaxtda mövcud olan qiymətlər əsasında hesablanır.

2.4. Kart pulsuz şəkildə Satıcı tərəfindən Alıcıya verilir. Alıcı tərəfindən kart itirilərsə və ya yararsız hala salınarsa, yeni kart almaq istəyən Alıcı kartın dəyərini ödəməklə kartı əldə edə bilər.

2.5. Kartın verilməsi və ya yenisi ilə əvəz olunması yalnız Alıcının yazılı müraciəti əsasında Satıcı tərəfindən həyata keçirilir.

2.6. Alıcının təqdim etdiyi siyahı (sifariş) əsasında kart müvafiq şəxsə və (və ya) nəqliyyat vasitəsinə təhkim edilə bilər.

2.7. Alıcının təqdim etdiyi siyahı (sifariş) əsasında hər kartın istifadəsinə görə sutkalıq limit müəyyən edilə bilər.

2.8. Karta limit qoyulmayıbsa, bu kart üzrə YDM-də yanacağın buraxılması məhdudlaşdırılmır.

2.9. Kart YDM-də istifadə olunarkən, Alıcıya buraxılmış yanacağın növünü və miqdarını əks edən qəbz verilir. Alıcı ümumi hesab haqqında məlumatı Satıcının Mərkəzi ofisindən və ya onlayn şəkildə öz şəxsi kabinetindən əldə edə bilər.

2.10. Alıcı yalnız özünə məxsus olan istifadəçi adı və məxfi kodu Satıcıdan almaqla, müstəqil olaraq onlayn şəkildə şəxsi kabinetindən kartın istifadəsinə və YDM-dən alınan yanacağa nəzarət edə bilər.

2.11. Alıcı öz şəxsi kabinetində istifadəçi adı və məxfi kodundan istifadə edərək Elektron Talon yarada bilər.

2.12. Alıcı yaradılmış Elektron Talon vasitəsi ilə istənilən Azpetrol yanacaqdoldurma məntəqəsində qeyd olunan marka və dəyərində yanacaq sifariş edir.

2.13. Alıcı ödədiyi məbləğdən istəyinə uyğun olaraq təqdim etdiyi Etibarnamə əsasında Hədiyyə kartları əldə edə bilər. Hər bir Hədiyyə Kartın üzərində həmin Kartın etibarlılıq müddəti qeyd edilir. Qeyd edilən etibarlılıq müddəti bitmiş Hədiyyə Kartları üzrə heç bir əməliyyat aparılmır, onlar geriyə qaytarılmır və müddəti uzadılmır. Alıcı tərəfindən Hədiyyə kart itirilərsə və ya yararsız hala salınarsa, yeni Hədiyyə Kartını almaq istəyən Alıcı yeni kartın dəyərini tam olaraq ödəməlidir.

2.14. Hər ayın sonunda, Alıcıya onun kartı ilə aparılmış həmin ay üçün bütün əməliyyatları əks etdirən standart hesabat təqdim olunur. Satıcı Alıcının istəyi ilə ona izahlı hesabat təqdim edə bilər.

## III. TƏRƏFLƏRİN ÖHDƏLİKLƏRİ

3.1. Satıcı:

3.1.1. Yanacağa dair ödənişi qəbul etdikdən sonra, Alıcının sifarişində göstərilmiş sayda kartı ona təqdim edir.

3.1.2. Alıcıya təqdim edilmiş kartla Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən Satıcıya məxsus bütün YDM-lərdə yanacağın xidmət rejimində buraxılmasına təminat verir.

3.1.3. Yanacağı Alıcıya mövcud Tarif (qiymət) Şurasının təsdiq etdiyi qiymətlərlə satır. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən yanacaq qiymətləri artırıldıqda və ya azaldıqda, Alıcıdan razılıq almadan birtərəfli qaydada yanacağın qiymətlərini müvafiq şəkildə dəyişdirir.

3.1.4. Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli qərarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04 yanvar 2021-ci il tarixli, 1 saylı qərarı ilə idxal olunan ekoloji norması avro-5 tələblərinə uyğun, oktan ədədi 95 və daha yüksək olan avtomobil benzinlərinin «Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı»nın 2-ci hissəsində olmadığını nəzərə alaraq yanacağın qiyməti Satıcı tərəfindən və digər mallar isə Tarif(qiymət) Şurası tərəfindən müəyyən edilir.

3.1.5. “Premium” və Sıxılmış maye qazın (STQ) qiymətləri, eyni zamanda elektrik mühərrikli nəqliyyat vasitələrinə dolum xidmət haqqı Şirkətin daxili qiymət siyasətinə uyğun olaraq dəyişdirilə bilər.

3.2. Alıcı:

3.2.1. Yanacaq üçün kartın alınması barədə Satıcıya 5 gün əvvəlcədən sifariş etməlidir.

3.2.2. Yanacağın dəyərini Satıcı tərəfindən verilən hesab – faktura əsasında əvvəlcədən ödəyir.

3.2.3. Kart itirildiyi, oğurlandığı və ya Alıcıdan asılı olmadan onun sərancamından çıxdığı hallarda, Satıcıya yazılı məlumat verilir və ya Alıcı onlayn şəkildə şəxsi kabinetində kartı blok edir.

## IV. Fors-major halları:

4.1. Müqavilənin icrasına maneçilik törədən, Tərəflərin iradəsindən asılı olmayan və Müqavilənin bağlandığı zaman müəyyən oluna bilməyən və məqsədyönlü vasitələrlə qarşısı alına bilməyən qarşısıalınmaz hallar (fors-major) mövcud olduqda, Tərəflər Müqavilə ilə müəyyən olunmuş öhdəliklərini həyata keçirə bilmədikləri hallarda məsuliyyət daşımırlar. Belə halların təsiri altına düşən Tərəf həmin halların əmələ gəlməsi, növü və mümkünsə davam edəcəyi müddət barədə digər Tərəfə dərhal yazılı şəkildə məlumat verməlidir. Əgər Tərəf qarşısıalınmaz halların (fors-major) mövcudluğu barədə digər Tərəfə yuxarıda göstərilən qaydada məlumat verməzsə, o zaman bu Tərəf həmin halların mövcudluğuna əsaslana bilməz.

## V.TƏRƏFLƏRİN MƏSULİYYƏTİ VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

5.1. Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməməsinə və ya lazımi şəkildə əməl edilməməsinə görə tərəflər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə məsuliyyət daşıyırlar.

5.2. Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olunmaqla Müqavilənin icrası ilə bağlı texniki, maliyyə, kommersiya məlumatları tərəflər gizli saxlamalı və üçüncü şəxslərə bildirməməlidirlər.

5.3. Bütün mübahisə və ixtilaflar tərəflər arasında aparılan danışıqlar yolu ilə həll edilir. Razılaşmanın əldə olunması mümkün olmadığı halda mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müvafiq məhkəmələrdə həll olunur.

## VI. DİGƏR ŞƏRTLƏR

6.1. Müqavilə tərəflər arasında əldə edilmiş tam razılığı ifadə edərək, imzalandığı andan onun predmetinə aid olan istənilən əvvəlki şifahi və ya yazılı razılaşmaları ləğv edir.

6.2. Müqaviləyə ediləcək istənilən əlavə və dəyişikliklər iki tərəf arasında imzalandıqdan sonra qüvvəyə minir və Müqavilənin tərkib hissəsi sayılır.

6.3. Bu Müqavilə 3 (üç) il müddətinə bağlanılır. Bu müddətin bitməsinə ən azı 7 (yeddi) təqvim günü qalanadək tərəflərdən biri digərinə bu müqavilənin ləğv edilməsi barədə yazılı müraciət etməzsə, bu müqavilənin müddəti növbəti ilə (illərə) avtomatik olaraq uzadılmış hesab edilir.

6.4. Tərəflər bir birlərini 1 (bir) ay əvvəlcədən yazılı şəkildə xəbərdarlıq etməklə Müqaviləyə birtərəfli qaydada xitam vermək hüququna malikdirlər.

6.5. Müqaviləyə xitam verilərkən Tərəflər arasında müvafiq hesablaşmalar aparılır və bir tərəf digər tərəfə bu müqavilə üzrə artıq ödədiyi vəsaitin geri qaytarılmasını və ya əldə etmədiyi vəsaitin ödənilməsini tələb edə bilər.

6.6. Müqavilə Azərbaycan dilində 2 (iki), eyni hüquqi qüvvəyə malik nüsxədə tərtib olunur və hər tərəfə bir nüsxə təqdim edilir.

## VII. TƏRƏFLƏRİN REKVİZİTLƏRİ VƏ İMZALARI

7.1. Satıcı: ünvan – Bakı şəhəri 8 Noyabr pr-ti 91 “Azure” Biznes Mərkəzi 27/28-ci mərtəbə, VÖEN–1700166231,İBAN–AZ03HAJCHCRAZN10000068935001,bank– ASC «Xalq» Bankının Baş filialı,Kod–501026,VÖEN(bank)-2000296061,m/h–AZ24NABZ01350100000000067944, SWIFT– HAJCAZ22.

7.2. Alıcı:

| | |
|---|---|
| **Satıcının adından:** | **Alıcının adından:** |
| **İmza:** ____________________ | **İmza:** ______________________ |
| **Adı: Ceyhun Məmmədov** | **Adı:** |
| **Vəzifəsi: Baş direktor** | **Vəzifəsi:** |